X.T.VƏLİYEVA
*AMEA-nın Tarix İnstitutu*

# XIX ƏSRİN AXIRLARI-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN YEYİNTİ SƏNAYESİNİN XAMMAL BAZASI HAQQINDA

Şimali Azərbaycanda yeyinti sənayesi geniş şəkil almışdı. Buna imkan yaradan əsas amillər ölkədə xammal mənbələrinin zənginliyi idi. Bu mənbələr içərisində tütünçülük, biyan kökü və çiyid əldə edilməsi xüsusi yer tuturdu.

Şimali Azərbaycanda tütün becərilməsinin bir neçə əsirlik tarixi vardır. Amma onun ticarət əkinçiliyi sahəsinə çevrilməsi XIX əsrdən başlayır. Bu prosesə 1872-ci ildə xaricdən gətirilən tütünün puduna qoyulan verginin artırılaraq 2 man. çatırılması təkan verdi (1.s.24). Lakin bu uzun sürmədi. 1873-cü ilin fevralında aksız vergisinin iltizama verilməsi ləğv edildi. Elə həmin ildə Cənubi Qafqaz aksiz idarəsi yaradıldı (2 s.171). Tütünə və spirtli içgilərə qoyulan aksiz vergisindən xəzinəyə külli miqdarda vəsait daxil olurdu. Məsələn, 1892-ci ildə yalnız tütün istehsalından Cənubi Qafqaz üzrə xəzinəyə 1,4 mln. man. pul vəsaiti daxil olmuşdu ki, bunun da müəyyən hissəsi Azərbaycanın payına düşürdü (2, s.171).

Azərbaycanda tütünçülüklə demək olar ki, bütün qəzalarda məşğul olurdular. Lakin Bakı quberniyasında Quba, Göyçay, Yelizavetpol (Gəncə) quberniyasında isə Gəncə və Nuxa (Şəki) qəzalarında daha çox tütün yarpağı becərilirdi. Lənkaran qəzasında tütün becərilməsində sabitlik yox idi. Ölkəmizdə Zakatala dairəsi tütün yarpağı becərilməsində mərkəzi yer tuturdu. Tütünə böyük tələbat olduğuna görə istehsalda xeyli irəliləyiş müşahidə edilirdi. 1872-ci ildə təkcə Quba qəzasında ümumi dəyəri 18 min manat olan 5700 pud tütün becərilmişdi. 1874-cü ildə Bakı quberniyası üzrə isə 6 min puda yaxın tütün əldə edilmişdi. Yelizavetpol quberniyasında 1873-cü ildə istehsal edilmiş tütünün ümumi miqdarı 5300 puda bərabər idi (1, s.214). Onu da xüsusi olaraq qeyd etmək istərdik ki, artıq 1873-cü ildən Cənubi Qafqazda, eləcə də Şimali Azərbaycanda Türkiyədən gətirilmiş tütün növünün tədbiqinə başlanılmışdı. Bu növ tütün əsasən Zakatala dairəsində becərilirdi (3, s.153) 1877-ci ildə idxal olunan tütünə qoyulan gömrük rüsumu 14 man. (qızıl pulla) qaldırıldı. Bu da öz növbəsində tütünçülüyün inkişafına təkan verdi (1, s.215).

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, tütün yarpağı həm mülkadar-bəy, həm də kəndlilərin pay torpaqlarında becərilirdi. XIX əsrin 70-ci illərinin sonuna yaxın vəziyyət aşağıdakı kimi idi (4, s.127):

| | | | |
|---|---|---|---|
| Yelizavetpol qəzası – | 12 des. | Göyçay qəzası – | 2 des. |
| Cavanşir qəzası – | 4 des. | Quba qəzası – | 106 des. |
| Qazax qəzası – | 2 des. | Lənkaran qəzası – | 7 des. |
| Ərəş qəzası – | 1 des. | Cavid qəzası – | 4 des. |
| Şuşa qəzası – | 2 des. | Naxçıvan qəzası – | 3 des. |
| Nuxa qəzası – | 20 des. | Zakatala qəzası – | 69 des. |
| Şamaxı qəzası – | 4 des. | | |

Yuxarıda verilmiş statistik material əsasında deyə bilərik ki, göstərilən dövrdə Şimali Azərbaycanda 236 des. sahədə tütün becərilirdi. Bir neçə qəzanı çıxmaqla qalan yerlərdə tütün əkinlərinin sahəsi çox xırda idi. Ona görə də tütünçülüyü xırda kəndli təsərrüfatı kimi səciyyələndirmək olar (5, s.33). Yuxarıdakı məlumatdan da aydındır ki, tütün əkini sahələrinin üçdə ikisi Quba qəzası və Zakatalada yerləşirdi. Həm də Quba, Nuxa qəzaları və Zakatala dairəsində iri əkin sahələri mülkadar-bəylərə məxsus idi.

XIX əsrin 80-90-cı illərinə dair materialların araşdırılması göstərir ki, bu dövrdə tütünçülükdə dinamik artım olmışdır. Tütün yarpağı becərilməsindəki tərəddüdər mövcud idi. Belə bir vəziyyət müxtəlif səbəblərdən meydana gəlirdi. Hər şeydən əvvəl becərmədə olan amilləri qeyd edək. Bir qayda olaraq tütün becərənlər-tütünçülər əldə edilmiş məhsulu özləri sata bilmirdilər. İri sahibkarlar yarpağı sahələrə uyğun alırdılar. Mövcud aksiz vergisi də inkişafa mane olurdu. Təbii şərait (quraqlıq və s.) də inkişafa mənfi təsir göstərən amillərdən hesab edilməlidir. Bütün bunlara baxmayaraq tütünçülük rentabelli təsərrüfat sahəsi idi. Tütündən əldə edilən gəlir onun becərilməsinə sərf edilən vəsaitdən xeyli yüksək olurdu. Tütünün bir desyatin sahəsinə təxminən 50-75 man. vəsait qoyulduğu halda əldə edilən gəlirin ümumi məbləği 180-200 man. bərabər olurdu. Bəzən bu məbləğ 250-275 man. çatırdı (6, s. 187). Bəhs edilən dövrdə tütünə artan tələbat tütünçülükdə müəyyən irəliləyişə gətirib çıxartmışdı. Bakı quberniyasında bəzi illəri çıxmaq şərtilə tütün yarpağı istehsalında artım gözə çarpırdı. Məsələn, əgər 1884-cü ildə təxminən 100 desyatin sahədən 21 min puddan çox aşağı növlü tütün yarpağı əldə edilmişdisə bu, 1886-cı ildə 26,8 min puda çatmışdı. Sonrakı illərdə isə müxtəlif səbəblərdən istehsal xeyli azalmış, əsrin sonunda 6,7 min pud təşkil etmişdi (4, s. 128). Yelizavetpol quberniyasında bir qədər fərqli mənzərə müşahidə edilirdi. 1883-cü ildə quberniyada cəmi 44 desyatin sahədə tütün yarpağı becərilmişdisə, sonrakı illərdə, daha doğrusu 1886-1887-ci illərdə, bu, 169-172 desyatin olmuşdu. Əsrin sonuna yaxın əkin sahələri nisbətən azalaraq 142 desyatinə düşmüşdü. Zaqatala dairəsində isə müvafiq illərdə əkin sahələri 78-121 desyatin arasında tərəddüd edirdi (4, s. 128).

Məhsul istehsalı da göstərilən illərdə aşağıdakı vəziyyətdə idi: Yelizavetpol quberniyasında 1887-ci ildə təxminən 11,4 min pud olmuşdusa 1896-cı ildə bu rəqəm 20 min puddan çox, əsrin sonunda isə nisbətən azalaraq 11,5 min puda enmişdi. Oxşar vəziyyət Zaqatala dairəsində də mövcud idi. Əgər 80-ci illərdə orta hesabla 11-13 min pud yarpaq əldə edilmişdisə, əsrin sonuna yaxın tütün yarpağının miqdarı 7,5 min puda düşmüşdü.

Haqqında danışınılan quberniyalarda aşağı növ (tənbəki) yarpaqla bərabər əla növ (Samsun, Trabzon növləri) tütün də becərilirdi. 80-ci illərin əvvəllərinin 3 ili (1884-1886) ərzində Bakı quberniyasında təxminən 98 desyatin əkin sahəsindən 1114 pud əla növ, 25,6 min pud tənbəki yığılmışdi. Əkin sahələrinin 70,9 %-i (64 desyatin) əla növ tütün yarpağının, aşağı növ yarpağın 61,4 %-i (15, 4 min pudu) təkcə Quba qəzasının payına düşürdü. Eyni vəziyyəti Yelizavetpol quberniyasına da şamil etmək olar. Yuxarıda göstərilən illərdə quberniya üzrə 169 desyatin əkin sahəsində 1280 pud əla növ, 7,8 min pud tənbəki becərilmişdi ki, bunun da 69 %-ni, yəni əla növün 950 pudunu, tənbəkinin isə 5 min pudunu təkcə Nuxa qəzası vermişdi. Əkin sahələrinin də 66 %-dən çoxu (105 desyatin) Nuxa qəzasında yerləşirdi (1, s. 217-219).

Qeyd etmək lazımdır ki, əldə edilmiş tütünün müəyyən hissəsi şəxsi istifadəyə işlənir, böyük əksəriyyəti isə yerli tütün və maxorka fabriklərinə (Bakı, Nuxa və Gəncədəki) satılırdı. Az bir hissəsi isə Rusiya və Tiflisə göndərilirdi. Yeri gəlmişkən göstərmək gərəkdir ki, 80-ci illərin ikinci yarısı – 90-cı illərdə, Bakı şəhərində 7 tütün fabriki işləyirdi. Bunların üçündə maxorka, qalan 4-də isə tütün istehsal edilirdi. Gəncədəki 3 fabrikin 2-də tütün, 1-də isə maxorka itstehsal olunurdu. Nuxa şəhərində 3 maxorka fabriki vardı. Natamam məlumatlara görə XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda hər il orta hesabla 330 desyatin əkin sahəsindən 32 min pud əla və aşağı növ tütün yarpağı əldə edilmişdisə, 90-cı illərdə bu, müvafiq olaraq 270 və 27 min pud olmuşdu (5, s.33). Şimali Azərbaycanda becərilən tütün yarpağı başlıca olaraq satışa gedirdi. Başqa sözlə desək, tütün yarpağı kapitalist əmtəə xarakteri almışdı. Tütün yarpağı becərilən tarlalarda, xüsusilə iri əkin sahələrində muzdlu əməkdən geniş şəkildə istifadə

olunurdu. Tütünçülər həm mülkədar – bəylər, həm icarədarlar və həm də tacir – möhtəkirlər tərəfindən istismar edilirdilər (7, s. 176). Ona görə də təsərrüfatın bu sahəsini sənaye tütünçülüyü sahəsinə aid etmək mümkündür.

Yuxarıda gətirilmiş materialların tütünçülük haqqında müəyyən təsəvvür yaratmasına baxmayaraq, Rusiya imperiyasında, eləcə də Şimali Azərbaycanda tütünə olan tələbat lazım olan dərəcədə ödənilmirdi. Təkcə onu demək kifayətdir ki, XIX əsrin 60-70-ci illərində Avropa Rusiyasında 1,3 mln. pud tütün yarpağı əldə edilmişidi. Sonrakı dövrlərdə istehsalın xeyli artmasına baxmayaraq, xaricdən də tütün alınırdı (8, s. 410).

XX əsrin əvvəllərində tütünçülükdə canlanma başlandı. Yuxarıda göstərildiyi kimi, canlanmaya səbəb olan amillərdən tütünün rentabelliyi və Rusiya bazarında ona olan tələbatın böyük olması idi. Azərbaycanda tütün yarpağı becərilməsi bütün qəzalarda həyata keçirilirdi. Naxçıvan qəzasında təsərrüfatın bu sahəsi tütünçülüyün inkişaf etdiyi Nuxa, Quba qəzaları və Zaqatala dairəsinə nisbətən xeyli geridə qalırdı. Yüksək növlü tütün yarpağı becərilməsi ilə, bəzi istisnalarla, Azərbaycanın hər yerində məşğul olurdular. Zaqatalada isə sarı tütün növü geniş yayılmışdı. Paraqrafda qeyd edildiyi kimi, əkin sahələri əsasən çox xırda olurdu.

Tütün yarpağı becərilməsində Yelizavetpol quberniyası xeyli fərqlənirdi. Bütün qəzalarda tütün əkilməsinə baxmayaraq, Nuxa və Gəncə qəzaları irəlidə gedirdi. Əkin sahələri kiçik idi. Çox az hallarda əkin sahələri 2-3 desyatini keçirdi. Quberniyada tütün əkilən sahələr, bir neçə ili çıxmaq şərtilə, orta hesabla ildə 110 desyatindən çox olmurdu. Hətta 1903-cü ildə 330 və 1914-cü ildə isə 157 desyatinə bərabər idi. Ayrı-ayrı qəzalar da həm əkin sahəsinə və həm də əldə edilmiş tütünün kəmiyyətinə görə seçilirdilər. Məsələn, 1911-ci ildə quberniyada becərilmiş tütünün təxminən 85 %-ni (15100 pud) Nuxa qəzası vermişdi. Tənbəki istehsalı burada, eləcə də bütün quberniyada əsas yeri tuturdu. Əla növ tütün yarpağı da becərilirdi. 1910-cu ildə Cavanşir qəzasında 8 desyatin sahədən 280 pud əla növ tütün yığılmışdı. Həmin ildə quberniya üzrə 1746 pud əla növ tütün becərilmişdi (9, s. 186). Məhsul istehsalında elə bir ciddi dəyişiklik baş verməmişdi. Əgər 1900-cü ildə təxminən 131 desyatin sahədən 14,3 min pud tütün əldə edilmişdisə, üç il sonra, yəni 1903-cü ildə tütün istehsalının həcmi bu səviyyəyə çatmamışdı. Təkcə 1912-ci ildə onun yarısından bir qədər çox yarpaq əldə edilmişdi (10, s. 17; s. 177-180). Hətta Birinci dünya müharibəsinin ikinci ilində də 15.5 min pud tütün yığılmışdı.

Bakı quberniyasında tütünçülük quberniyanın təsərrüfat həyatında o qədər də mühüm yer tutmurdu. 1900-1914-cü illərdə quberniyada əkin sahələri 35-60 desyatin arasında tərəddüd edirdi. Əgər 1901-ci ildə tütün əkilən sahə 44 desyatin idisə, 1915-ci ildə bu rəqəm 142 desyatini keçmişdi. Quberniyada məhsul istehsalını stabil hesab etmək olar. Ən çox yarpaq yığımı, 1908-ci ildə baş vermişdi (təxminən 5,4 min pud). Hətta 1915-ci ildə 4 min pud tütün yarpağı yığılmışdı. Bakı quberniyasında becərilən ümumi məhsulun çoxunu Quba qəzası verirdi. 1909-cu ildə becərilən 5 min puda yaxın tütünün təxminən yarısına qədərini, yəni 242 pudunu, 1913-cü ildə isə 4 min puddan bir qədər çox tütünün isə 3183 pudunu Quba qəzası vermişdi. Burada az miqdarda əla növ tütün becərilirdi. Quberniyada tütün yarpağı istehsalında Göyçay qəzası ikinci yerdə gedirdi. Bu qəzada başlıca olaraq yüksək növlü tütün istehsal edilirdi. Məsələn, 1909-cu ildə qəzada 915 pud əla növ tütün yarpağı əldə edilmişdi. Yekun olaraq demək lazımdır ki, 1915-ci ildə quberniyada 2033 pud əla növ tütün becərilmişdi. Bu isə ümumi məhsulun 50 %-dən çoxunu təşkil edirdi (11, s. 162-163; 9, s. 187).

Azərbaycanın Zaqatala dairəsində tütün əkin sahələri, eləcə də ümumi məhsul istehsalı Yelizavetpol və Bakı quberniyalarından əsaslı şəkildə fərqlənirdi. Əgər dairədə 1900-cü ildə 76 desyatin əkin sahəsi vardısa, bu, 1904-cü ildə 129 desyatinə, 1909-cu il-

də 388 desyatinə çatmışdı. Məhsul istehsalı da müvafiq illərdə artmışdı. Məsələn, 1900-cü ildə 6170 pud, 1904-cü ildə 12984 pud, 1909-cu ildə 15400 pud və 1914-cü ildə isə 35830 pud olmuşdu (12, s. 122; s. 147; 11, s. 165; 11, s. 187). Xüsusi qeyd etmək lazımdır ki, tək Azərbaycanda deyil, Cənubi Qafqazda da sahəcə ən iri plantasiyalar Zaqatala dairəsində yerləşirdi. 1906-cı ildə burada sahəsi 36 desyatin olan plantasiya genişləndirilərək 40 desyatinə çatdırılmışdı (10, s. 12). Amma başqa qəzalarda olduğu kimi, burada da nisbətən xırda sahələr mövcud idi. Məsələn, 1908-ci ildə 1 desyatinə qədər sahəsi olan 9, 2-4 desyatin sahəyə malik 7 və nəhayət, 4-6 desyatin sahəyə malik olan 4 tütün plantasiyası olmuşdur. 1912-ci ildə isə həm plantasiyaların sayında, həm də onların sahələrində xeyli dəyişikliklər müşahidə edilirdi. Məsələn, sahəsi 1 desyatinə qədər olan 44 plantasiya vardısa, 1-2 desyatinə qədər sahəyə malik 12, 2-4 desyatin sahəsi olan 6, 4-6 desyatin sahəsi olan 2, həmçinin 8-10 desyatin sahəyə malik 1 və nəhayət, 16-18 desyatin sahəyə malik olan 2 plantasiya düzəldilmişdi. Bu da öz növbəsində dinamik inkişafın göstəricisidir.

Bəhs edilən dövrdə Naxçıvan qəzasında az-çox irəliləyiş gözə çarpırdı. 1901-ci ildə qəzada 4,5 desyatin sahədə tütün becərilmişdisə, bu 1904-cü ildə 8,5 desyatinə, 1914-cü ildə isə 10,6 desyatinə bərabər idi. Oxşar artımı məhsul istehsalı haqqında da demək mümkündür. 1901-ci ildə qəzada tütün yarpağının miqdarı 598 pud olmuşdusa, 1904-cü ildə bu rəqəm 385 pud, 1913-cü ildə 854 pud, 1914-cü ildə isə 660 pud təşkil edirdi (9, s. 188). Onu da demək gərəkdir ki, 1925-ci ildə nəşr olunmuş kitabda – «Закавказье.- Статистико-экономический сборник» məcmuəsində Naxçıvan qəzasında 1909-cu ildə 90 desyatin, 1910-cu ildə 72, 1911-ci ildə 98, 1912-ci ildə 78 və 1913-cu ildə isə 79 desyatin tütün əkini sahəsi olduğu göstərilir (13 s.244). Əlbəttə yüxarıda verilmiş birinci rəqəmlərlə məcmuədə gətirilmiş rəqəmlər arasında 8-10 dəfəyə qədər fərqin olması nəzərə alınmalıdır.

Azərbaycanın cənub regionunda da tütünçülüklə məşğul olurdular. Burada istehsal olunan yarpaqdan yerlərdə istifadə edilməklə yanaşı qonşu İrana da ixrac edilirdi. 1901-ci ildə Lənkəran və Cavad qəzasında becərilmiş tütünün 700 puddan çoxu doğranmış halda İrana satılmışdı. 1902-ci ildə ixrac olunan tütündən alınan gömrük haqqının 4 manat 75 qəpiyə qaldırılması bu qəzalarda tütün becərilməsinə bir növ son qoydu. Sonrakı illərdə, xüsusilə 1911-ci ildə Lənkəran və 1912-ci ildə isə Cavad qəzasında tütünçülük yalnız yerli istehsal xarakteri almışdı (9, s. 188).

XX əsrin əvvəllərində Şimali Azərbaycanda tütünçülükdə gözə çarpan artıb-azalmalar, yuxarıda göstərildiyi kimi, bir çox səbəblə izah edilməlidir. 1900-cü ildə Şimali Azərbaycanda 238 desyatin sahədən 24,5 min puddan çox tütün əldə edilmişdisə, 1909-cu ildə əkin sahələri 346 desyatinə, məhsul istehsalı, 35 min puda, iki il sonra isə təxminən 46 min puda çatmışdı. Birinji dünya müharibəsi dövründə tütünə olan ehtiyac görünməmiş səviyyəyə qalxmışdı. Ona görə məhsul istehsalı demək olar ki, ixtisar edilməmişdi. 1915-ci ildə, yəni müharibənin ikinci ilində natamam məlumata görə, 587 desyatin tütün əkini sahəsindən 45,8 min pud tütün yarpağı götürülmüşdü (9, s. 187). 1914-cü il noyabrın 11-də tütün məmulatından alınan aksiz vergisinin yenidən artırılması istər-istəməz tütünçülüyə də mənfi təsir göstərmişdi (14, s. 532). Cənubi Qafqazda tütünçülük yalnız Gürcüstanda geniş miqyas almışdı. Borçalı mahalının tütünçülükdəki rolu böyük idi.

Şimali Azərbaycanda becərilən həm ikinci növ, həm də birinci növ tütünün satış qiymətində də sabitlik yox idi. Bazar şəraitindən, eləcə də digər amillərdən asılı olaraq artıb-azalmalar baş verirdi. Birinci dünya müharibəsi ərəfəsində tənbəkinin pudu 4-5 manata, əla növün, daha doğrusu sarı tütünün pudu 7-10, ayrı-ayrı illərdə isə 12 manata satılırdı (9, s. 188). Azərbaycanda becərilən tütün yarpağı sadə üsulla qurudulurdu.

Bir qayda olaraq tütün yarpağının günün altında qurudulması təcrübəsi keyfiyyətə mənfi təsir edirdi. Yaş və quru tütün yarpağı müxtəlif qiymətə gedirdi. Ölkədə becərilən tütün yerli fabriklərdə emaldan keçirilirdi. Tütünün bir hissəsi isə Rusiyanın mərkəzi quberniyalarına göndərilirdi (15, s. 55).

Tədqiq olunan dövrdə biyan kökü emalı sənayesinin xammalla təjhizi biyan kökü hesabına həyata keçirilirdi. Biyan çoxillik bitkidir. Biyan dünyanın bir çox ölkəsində bitirdi. Bu ölkələrdən Avropada İspaniya, İtaliya, Asiyada, Suriya, Türkiyə, İraq və Cənubi Azərbaycanda daha çox yayılmışdı. Rusiya imperiyasında Orenburq, Həştərxan, Bessarabiya, eləcə də Krımda kəndlilərin təsərrüfat həyatında müəyyən rol oynayırdı. Biyanın geniş yayıldığı region isə Cənubi Qafqazda – Azərbaycan hesab olunurdu. O dövrün mütəxəssislərinin fikirlərinə görə ən keyfiyyətli biyan Şimali Azərbaycanda bitirdi. Biyan həm təbii şəkildə olur, həm də onun becərilməsi üçün xüsusi plantasiyalar salınırdı (16. s. 11). Azərbaycanda biyan kökünün qazılıb çıxarılması, onun torpaqdan təmizlənməsi və qurudulması üçün çox vaxt tələb olunurdu. Əsrlər boyu kəndlilərin yem kimi mal-qaraya verdikləri, başqa kənd təsərrüfatı bitkilərinə mane olmasın deyə kəsib-tökdükləri biyan kökünün əldə edilməsi XIX əsrin son rübündə, xüsusilə XX əsrin əvvəllərində, həmin kəndlilərin yaşayış mənbələrindən birinə çevrilmişdi (9, s. 192-193).

Biyan kökü adətən kənd təsərrüfatı işlərinin qurtarmasından sonra, yəni oktyabr ayından başlayaraq aprel ayınadək çıxarılırdı. Amma kökün qazılmasına qədər kəndlilər biyan kökü bitən ərazilərdə bir sıra iş görürdülər. Sahələrin alaq və digər otlardan təmizləməsi, biyan kökünün qurudulması, lazımi məntəqələrə daşınması və digər əməliyyatlar nəzərə alınarsa, onda böyük əminliklə demək olar ki, biyan kökü becərilməsi, onun qazılıb çıxarılması, təmizlənməsi, qurudulması, bir yerdən başqa yerə daşınması ilə təxminən yeddi-səkkiz aya qədər bir müddətdə məşqul olunurdu (17, s.388).

Azərbaycanda biyan kökü Kürün sağ sahili boyu-Tovuzdan Cavadadək olan ərazilərdə, Kürlə Araz çayı arasındakı düzənliklərdə, həmçinin Arazboyu bölgələrdə əldə edilirdi. Şimali Azərbaycanda biyan kökü Bakı quberniyasının Göyçay, Şamaxı, Cavad və qismən Quba qəzasında da becərilirdi. Biyan kökü bir qayda olaraq bir-iki boyun öküz qoşulmuş dəmir kotanla, xam torpaqlarda isə üç-dörd boyun öküz yaxud kəl qoşulmuş kotanla çıxarılırdı. Biyan kökünün çıxarılmasında traktorlardan da istifadə olunurdu (17, s.388). Kökün əldə edilməsi üçün muzdlu əməkdən geniş istifadə olunurdu. Bir kəndli gündə 3-4 pud biyan kökü çıxara bilirdi. Biyanın çox sıx bitdiyi yerlərdə kotanla hər gün 250-300 pud kök qazılıb çıxarılırdı. Qazılıb çıxarılan biyan kökünü çeşidləyir və aprel ayınadək onu qurudurdular. Qurudulan biyan kökü Kür çayının sağ sahili boyunca tikilmiş anbarlara yığılıb saxlanılırdı. Kök qurudulandan sonra öz çəkisinin 50%-dən çoxunu itirirdi.

Anbarlara yığılmış quru kökü Kürün sol sahilinə keçirdikdən sonra dəmiryol stansiyalarına daşıyıb biyan kökü emalı zavodlarına çatdırırdılar. Bununla da təsərrüfatda işin birinci mərhələsi başa çatmış hesab olunurdu. Quru biyan kökünü Kür çayından keçirməkdən ötrü Carlı, Mollakənd, Əlvənd, Zərdab və Ərəbxandam kəndlərində salınmış bərələrdən istifadə edirdilər.

Biyan kökünün qazılıb çıxarılması çox ağır bir iş olsa da bu işi görən kəndliyə cüzi məbləğdə zəhmət haqqı verilirdi. Burada bir neçə tərəf iştirak edirdi. Bir halda zavod sahibləri qabaqcadan kəndliyə verilmiş beh müqabilində məhsulu ucuz almağa çalışırdılar. Sənayeçilər arasında biyan kökü uğrunda rəqabət gedirdi. Onlar daha çox və daha ucuz biyan kökü almağa can atırdılar. Zavod sahibləri bu əməliyyatı çox zaman yerli mülkadarlar vasitəsilə həyata keçirirdilər. Burada mülkədarlar möhtəkir rolunda çıxış edirdilər. Bəzən belə də olurdu ki, mülkadar öz torpaqlarında biyan kökü çıxaril-

ması ixtiyarını bir neçə ilə sənayeçilərə verirdi. Bütün vəziyyətlərdə zərər çəkən kədlilər olurdular (5, s.382-383). Böyük zəhmət müqabilində kəndliyə çox az əmək haqqı verilirdi. Yaş biyan kökünün hər puduna kəndli 20 qəpik alırdı. Bu, bir puda nəzərdə tutulmuş 40 qəpiyin yarısı demək idi. Qalan 20 qəpik isə mülkadar-möhtəkirin cibinə gedirdi. Gün ərzində kəndli 80 qəpikdən çox qazana bilmirdi (18, s.31). Hələ XIX əsrin 90-cı illərində görkəmli ictimai xadim Həsən bəy Zərdabi kəndlilərin acınaçaqlı vəziyyəti haqqında mətbuatda çıxış edərək mülkədarın kəndlilərdən biyan kökünü su qiymətinə almaq üçün müxtəlif vasitələrə əl atdıqlarını təsvir edir, onlara hədə-qorxu gəlindiyini yazırdı (18. s.401). Deməli, XIX əsrin son rübündən biyan kökünə olan maraq görünməmiş dərəcədə artmışdı. Həmin əsrin 80-90-cı illərində biyan bitən sahələrin becərilməsi, kökün qazılıb çıxarılması barədə tam olmayan statistik məlumatlara görə 1887-ci ildə əldə edilmiş 360 min pud biyan kökünün təxminən 120 min pudu xaricə satılmışdısa, 1889-cu ildə çıxarılmış 1 mln. pud yaş biyan kökünün 240 min pudu, 1 il sonra - 1890-cı ildə isə 2,3 mln. pud yaş biyan kökünün 250 min pudu quru və preslənmiş vəziyyətdə ixrac edilmişdi. Ümumiyyətlə, biyan kökü bir qayda olaraq dəmir yolla daşınırdı. Daşımalar aşağdakı kimi idi (pudla):

| | |
|---|---|
| 1886 – 30111 | 1891 – 2.132955 |
| 1887 – 142348 | 1892 – 2.277355 |
| 1888 – 186397 | 1893 – 2.071573 |
| 1889 – 167509 | 1894 – 1.113093 |
| 1890 – 872561 | |

Gətirilmiş məlumatlardan bir daha aydın olur ki, XIX əsrin son onilliyində biyan kökünün əldə edilməsində müəyyən inkişaf var idi. Bu təsadüfi deyildi, Çünki bu dövrdə biyan kökü emalı zavodlarının sayı çoxalmış və biyan kökünə olan tələbat artmışdı. 90-cı illərin əvvəllərində xaricə göndərilən biyan kökünün miqdarında da artım (ayrı-ayrı illər üzrə) nəzərə çarpırdı. Yelizavetpol və Bakı quberniyalarından Poti və Batum limanlarına ixrac üçün göndərilən məhsulun miqdarı aşağıdakı qədər idi (min pudla):

| | |
|---|---|
| 1891 – 967 | 1893 – 913 |
| 1892 – 1,1 mln. | 1894 – 1.011 |
| | 1895 – 772 (1. s. 226) |

Heç şübhə yoxdur ki, 1895-ci ildə ixracın xeyli azalması Ön Asiyada yeni xammal bazalarının meydana çıxmasının təsiri ilə izah edilməlidir.

XX əsrin əvvəllərində bu istehsal sahəsində inkişaf bariz şəkildə özünü göstərirdi. Azərbaycanda biyan kökü emalı zavodlarının sayca artması və onların istehsal güclərinin yüksəlməsi biyan kökünün çıxarılmasında canlanma yaratmışdı. Biyan kökünü qazıb çıxaran kəndlilərin sayı da xeyli çoxalmışdı. Bəzi əsərlərdə XIX əsrin sonlarında bu işlə təkcə Yelizavetpol quberniyasında kənd əhalisinin 29%-nin məşğul olduğu göstərilir (5. s.282). Bizə belə gəlir ki, müəllif o dövrün mətbuatında çap olunmuş məlumatı saf-çürük etmədən əsərə daxil etmişdir. Əgər Bakı quberniyası üzrə məlumatları da buraya əlavə etsək, onda həqiqətdən böyük bir rəqəm alınar. Zənnimizcə yuxarıdakı faiz xeyli şişirdilmişdir.

XX əsrin əvvəllərində mənbələr və ədəbiyyatda verilən statistik rəqəmlərdə də kəskin fərqlər gözə çarpır. Bir ədəbiyyatda muzdlu biyan kökü çıxaranların syı 20 min nəfər (16. s.5), başqa birində isə kəndlilərin ümumi sayının bir neçə dəfə çox olduğu göstərilir (17. s.388). Bizim fikrimizcə bu müxtəlif rəqəmlərdən 60 min faktı həqiqətə daha yaxındır. Çünki bu ağır işlərin öhdəsindən yalnız bu qədər kəndlinin köməyi ilə gəlmək olardı. XIX əsrlə XX əsrin ayrıcında biyan kökünün əldə edilməsimdə gedən canlanmanı ayrı-ayrı qəzaların timsalında da görmək olar. Hələ 1900-cu ildə təkcə Göyçay qəzasında 556 min pud biyan kökü çıxarılmışdı (20. vər.3). Həm biyan kökünə

və həm də ondan hazırlanan cövhərə təkcə Rusiyada deyil (imperiyadakı 4 zavod tələbatı ödəyə bilmirdi), xarici ölkələrdə, xüsusilə İngiltərə və Amerikada böyük tələbat vardı. Ona görə də Rusiya hökuməti bu sahələrə xüsusi diqqət yetirirdi. Qurudulmuş biyan kökü bir qayda olaraq, dəmir yolla daşınırdı. Həm biyan kökü emalı sənayeçilərinin vəziyyətini bir qədər yüngülləşdirmək, həm də bütövlükdə biyan kökünün ixracında əlverişli mühit yaratmaq məqsədilə hökumət 1908-ci yanvarın 1-dən etibarən Batuma qədər dəmiryol tarifini aşağı saldı. Hökumətin bu qərarından sonra vaqonlarda daşınan quru kökün hər pudundan 9,8 qəpik alınırdı. Əvvəllərdə isə bu, 11,25 qəpik idi (16. s.14). Bəhs edilən dövrdə yaş biyan kökünün əldə edilməsində gözə çarpacaq dərəcədə inkişaf vardı. Yaş və quru biyan kökünün miqdarı haqqında müəyyən təsəvvürə malik olmaqdan ötrü aşağıdakı statistik materiallara nəzər salmaq kifayətdir (9. s.195):

| İllər | Yaş kök | Quru kök | İllər | Yaş kök | Quru kök |
|---|---|---|---|---|---|
| 1903 | 2.757246 | 919082 | 1910 | 3248823 | 1082946 |
| 1904 | 2.528964 | 842988 | 1911 | 2938389 | 979463 |
| 1905 | 2.361240 | 787080 | 1912 | 5415039 | 1805013 |
| 1906 | 2.577510 | 850170 | 1913 | 6067917 | 2032639 |
| 1907 | 2.356326 | 785446 | 1914 | 2652813 | 884271 |
| 1908 | 3.141306 | 1047102 | 1915 | 860919 | 286973 |
| 1909 | 4.466796 | 1488932 | 1916 | 3726412 | 1258804 |

Cəlvəldə verilmiş statistik materiallar reallığı tam əks etdirmir. Ona görə ki, həm yaş və həm də quru biyan kökünün əsl miqdarını sahibkarlar qəsddən az göstərirdilər. Çünki məhsuldan alınan verginin məbləği artmasın deyə bu üsula əl atırdılar. Verilmiş məlumatın natamam olmasına baxmayaraq bu məlumatlar belə biyan kökü istehsalı, eləcə də onun xarici ölkələrə ixracı barədə müəyyən aydınlıq yaradır. Onu da demək lazımdır ki, cədvəldə göstərilmiş rəqəmlərə biyan kökü emalı zavodlarında işlənmiş quru kökün miqdarı daxil edilməmişdir. Ona görə də Şimali Azərbaycanda çıxarılan yaş biyan kökünün illik orta miqdarını təxminən 4-5 milyon pud götürülməsi həqiqətə daha yaxın hesab edilməlidir. Eyni hesablama quru kökün də miqdarına aid edilməlidir. 1900-1902-ci illərə dair material tam olmadığından bu illər cədvələ daxil edilməmişdir. Müxtəlif mənbələr əsasında hesablamalar nəzərə alınarsa, onda 1900-1902-ci illərdə hər il 828-830 min pud biyan kökü çıxarıldığını demək mümkündür (17. s. 391).

Birinci dünya müharibəsi illərində həm biyan kökünün çıxarılmasında, həm də onun xaricə göndərilməsində geriləmə müşahidə edilirdi. Quru biyan kökünü idxal edən ölkələr Rusiyanın da daxil olduğu Antanta ittifaqının üzvləri - İngiltərə və Amerika idi. 1915-ci ildə xaricə yalnız 287 min pud quru biyan kökü ixrac edilmişdi. 1916-cı ildə biyan kökünə olan tələbat kökün miqdarının əvvəki ilə nisbətən 3,5 dəfədən çox olmasına baxmayaraq yenə də bu artımla 1913-cü ildəki səviyyəyə çatmaq mümkün olmamışdı. Bəhs edilən ildə 194 min pud quru kök dəmiryolla və təxminən 94 min pud isə Vladivostok və Arxangelskdən su yolu ilə İngiltərə, həmçinin Amerikaya göndərilmişdi (22. s. 49). Yeri gəlmişkən göstərmək lazımdır ki, Amerukanın biyan kökü emalı tresti azərbaycanda əldə edilən biyan kökü də daxil olmaqla dünyada hazırlanan quru biyan kökünün 90%-ni idxal edirdi (18. s.7).

Birinci dünya müharibəsi ərəfəsində, yəni 1913-cü ildə 6 milyon puddan çox biyan kökü əldə edilmişdi. Ümumiyyətlə, Şimali Azərbaycanda əldə edilən külli miqdarda biyan kökünü Sığırrı, Kürdəmir, Ucar, Poylu, Aqstafa, Tovuz, Zəyəm və Gəncəyə daşıyıb aparmaq məsələsi böyük əhəmiyyət kəsb edir. Çünki biyan kökü dəmiryol stansiyalarından həm yerli emal zavodlarına daşınır, həm də quru kök xarici ölkələrə bu stansiyalardan yola salınırdı (21. vər.23). Quru biyan kökünün pudunun maya dəyəri təxminən 1 manat 67 qəpik idi. Halbuki bu kökün pudunu sahibkarlar müxtəlif firmalara 4-5 manata satırdılar (20. vər.3). Amma bu biyan kökünü ağır zəhmət hesabına qazıb

çıxaran kəndlilərə, yuxarıda göstərildiyi kimi, qəpik-quruş verirdilər. Buna baxmayaraq, biyan kökünün qazılıb çıxarılması və torpaqdan təmizlənməsində, eləcə də növlərə ayrılması, kökün qurudulması, həmçinin lazımı yerlərə daşınması müqabilində kəndlilərin illik ümumi gəliri – zəhmət haqqı 2 milyon manatdan çox olurdu (18. s.32).

Biyan kökünün o zaman daşınmasında böyük çətinliklər vardı. Yolların lazimi vəziyyətdə olmaması daşımaları çətinləşdirən amillərdən yalnız biri idi. Burada daşıma və qoşqu vasitələrinin azlığı da işin gedişinə mane olurdu. Kəndlilər arabaları əsasən öz hesablarına düzəltdirir, arabalara qoşulan öküz və kəllərin böyük bir hissəsini isə icarəyə götürürdülər. Bəhs edilən dövrdə yaş və quru biyan kökünün lazımi yerlərə daşınmasında təxmini hesablamalara görə hər il orta hesabla 10 min arabadan istifadə edilirdi (21. vər.22-23).

Şimali Azərbaycanda çiyid yağı istehsalı XX əsrin əvvəllərində meydana gəlmişdi. Pambıq yağı istehsal edən zavod (müəssisə Ləkidə yerləşirdi) xammal kimi çiyiddən istifadə edirdi. Azərbaycanın 100-dən çox pambıq emalı zavodunda hər il 100 minlərlə pud çiyid alınırdı. Möhtəkirlər pambıqçıları hələ əkindən xeyli əvvəl tora salırdılar. Çünki ilk vaxtlar Azərbaycanın özündə toxumluq çiyid olmadığına görə kənardan – xaricdən gətirirdilər. Ona görə də toxumluq çiyid əldə etmək pambıqçılıqda mühüm mərhələ hesab olunurdu. Bunu yaxşı bilən möhtəkirlər əkin mövsümündə ortabab və yoxsul kəndlilərə toxumluq çiyidi müəyyən şərtlərlə verirdilər. Bu kateqoriyadan olan kəndlilər kənardan gətirilmiş toxumu baha qiymətə almağa məcbur idilər. Pambığın becərilməsi başa çatanda isə həmin möhtəkirlər onu istədikləri qiymətə kəndlidən alırdılar. Bir desyatin sahəyə təxminən 3-4 pud çiyid tələb olunurdu. Çiyidin hər pudunu kəndliyə 75 qəpik – 1 manata verirdilər. Bu da xırda kəndli təsərrüfatı üçün çətinlik yaradırdı (5. s.85).

Çiyid ilk vaxtlar Mərkəzi Asiyadan gətirilirdi. Sonrakı illərdə toxumluq çiyid Azərbaycanın pambıqçılıqla məşğul olunan qəzaların özlərində hazırlanırdı. O dövrün statistikası (xüsusilə XIX əsrin axırı – XX əsrin ilk illərinin) çiyidin miqdarı haqqında dəqiq fikir söyləməyə imkan vermir. Böyük təsərrüfat əhəmiyyətinə malik olan bu məsələ barədə az-çox doğru məlumat Ləki yağ zavodunun fəaliyyətə başlamasından (1906) sonrakı dövrə təsadüf edir. Çünki bu zavod ölkəmizdə pambıq yağı istehsal edən yeganə sənaye müəssisəsi idi. İndi isə ayrı-ayrı quberniyalarda əldə edilən çiyid haqqındakı məlumatlara nəzər salaq. Cənubi Qafqaz pambıqçılıq idarəsinin müdiri professor S.N.Timofeyevin verdiyi məlumata görə, 1911-1912-ci illərdə Yelizavetpol quberniyasında pambığın emalı prosesində təxminən 1,8 mln. puddan çox çiyid alınmışdı. Bunun 1,4 mln. pudu Batum, Poti və Odessa vasitəsilə xarici ölkələrə satılmışdı. Əvvəlki illərdə (1910-1911) isə Cənubi Qafqazın pambıq yağı istehsal edən müəssisələrinə 300 min puddan artıq çiyid göndərilmişdi. 1911-1912-ci ildə Bakıdan kənara, əlaxsus Rusiyaya 298 min pud çiyid aparılmışdı. Əgər yerərdə işlənən və başqa məqsədlər üçün istifadə olunan çiyidi də nəzərə alsaq, onda 1910-1911-ci təsərrüfat ilində quberniyadan kənara 872 min pud, 1911-1912-ci illərdə isə 1,9 mln. pud çiyid göndərildiyini demək olar (23. s.92-93).

Bakı quberniyasından 1910-1911-ci təsərrüfat ilində 210 min pud, 1911-1912-ci ildə isə 530 min pud çiyid ixrac edilmişdi. Bunun 118 min pudu 1911-1912-ci təsərrüfat ilində Poti və Odessa, 200 min pudu isə Batum vasitəsilə xaricə ixrac edilmişdi. Deməli, 1910-1911-ci ildə Bakı quberniyasından 220 min pud və 1911-1912-ci təsərrüfat ilində isə 520 min pud çiyid göndərildiyini demək mümkündür. Bundan əlavə Bakı quberniyasından Tislisə pambıq yağı istehsal edən zavoda da çiyid satılmışdı. Pambıq əkilən qəzalardan çiyidin bir hissəsini Yevlaxa gətirib Kür çayı vasitəsilə Xəzər dənizinə, buradan isə müxtəlif şirkətlərin gəmilərində Həştərxana yola salırdılar (24. s.72-80).

Şimali Azərbaycanda əldə edilən çiyidin miqdarı 1913-cü ildə də demək olar ki, dəyişməmişdi. Yelizavetpol quberniyasında təxminən 1,6 mln. pud, Bakı quberniyasında isə 1,2 mln. pud çiyid istehsal edilmişdi. Deməli, hər iki quberniyada pambığın emalı zamanı 2,8 mln. pud çiyid alınnmışdı. Əgər Naxçıvan qəzasında alınan 300 min puda qədər çiyidi də buraya əlavə etsək, onda 3 mln. puddan çox bir rəqəm alınar. Sonrakı ildə 3338 min puddan çox çiyid alınmnışdır (25. s.35). Bu yekun məlumata Naxçıvan qəzasında əldə edilən çiyidin miqdarı daxil deyildir. Əgər bu rəqəm də nəzərə alınsa, onda çiyidin illik miqdarı 3,6 mln. puddan çox olar. Burada mühüm bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır. O dövrün statistikasına əsasən çiyidin ümumi miqdarı haqqında dəqiq məlumat vermək demək olar ki, mümkün deyilldir. Çünki yerli yağ zavodlarına satılan, eləcə də yerlərdə kəndlilərin ehtiyacları üçün işlətdikləri çiyidin miqdarı barədə heç vaxt doğru-dürüst məlumat verilmirdi.

Birinci dünya müharibəsinədək Şimali Azərbaycanın pambıqtəmizləmə zavodlarında əldə edilən çiyidin yalnız 25-30%-i pambıq yağı istehsal edən zavodda emal edilirdi. Çiyidin böyük bir hissəsi Rusiyanın müxtəlif şəhərlərinə aparılırdı. Məsələn, 1911/12-ci mövsümdə 2125 min, 1912/13-cü ildə 1476 min, 1913/14-cü ildə isə 1312 min pud çiyid satılmışdı. 1913-cü ildə Poti, Batum və Odessadan Hamburq, London və Marselə 531 min pud çiyid ixrac olunmuşdu. 1913-cü ildə Rusiyanın daxili quberniyalarındakı müəssisələrə Kür çayı-Xəzər dənizi ilə 414 min pud çiyid aparılmışdı. Dəmiryolla göndərilən çiyidin miqdarını müəyyən etmək mümkün olmamışdır. Həmin ildə çiyidin ümumi miqdarının yalnız 10-15%-i toxum kimi səpilmişdi (25. s.39).

Yeri gəlmişkən mühüm bir cəhəti qeyd etmək lazımdır. 1910-1913-cü illərdə Şimali Azərbaycanda orta hesabla hər il 6-8 mln. pud çiyidli pambıq becərildiyi nəzərə alınarsa, onda çiyidin miqdarı haqqındakı rəqəmlər heç də şübhə doğurmamalıdır. Çünki 3 pud pambıqdan 2 pud çiyid alınırdı (9. s.89; s.90). Birinci dünya müharibəsinin ilk illərindən fərqli olaraq, 1917-ci ilin əvvəllindən çiyidin alqı-satqısına dair mövcud qərarların ləğv edildiyi elan olundu. Daha çiyidin ayrı-ayrı şəxslərə, firmalara satılması, eləcə də saxlanılması, Yelizavetpol və Bakı quberniyaları ərazilərində dəmiryolla daşınması qadağan olunmuşdu. İstehsal edilmiş çiyidin hamısı icbari şəkildə Ümumiqafqaz ölkə ərzaq idarəsinə təhvil verilməli və çiyidin satılması bütünlüklə bu idarəyə həvalə edilmişdi. Tiflis-Bakı dəmiryolu stansiyalarında, həmçinin Kürboyu məntəqələrdə isə çiyidin satışı sabit dövlət qiyməti ilə həyata keçirilə bilərdi. Müvəqqəti hökumətin bu məsələ ilə əlaqədar həyata keçirdiyi tədbirlər çiyid tədarükünü icbari şəkilə salmışdı (26. vər.257). Azərbaycanda istehsal edilən çiyidin satışından hər il orta hesabla 2-3 mln. manat gəlir götürülürdü (11. s.159).

## *ƏDƏBİYYAT*

1.Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Bakı, 1958, 364 s.
2.Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., I cild, Тбилиси, 1957, 343 səh.
3.Триды Кавказского общества сельского хозяйства, (далее-КОСХ) 1888, № 3.
4.Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края, Тифлис,1894, 360 с.
5.Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX- нач. XX века. Bakı, 2002, 529 s.
6.Azərbaycan tarixi, II cild, Baki, 1964, 998 s.
7.Azərbaycan tarixi, IV cild, Bakı, 2000, 456 s.
8.Хромов П.А. Экономическое развитие России в XIX-XX веках. M., 1950, 551 s.
9.Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987, 256 s.

10.Пиралов А.С. Табаководство в ЗСФСР-Экспортные товары Закавказья и условия их добывания и производства. Тифлис, 1925, I hissə, 425 s.; Гугушвили П.В. Тавакоdство в Грузии и Закавказье в 1801-1920 гг. (отдельный оттиск). Тбилиси, 1959.
11.İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960, 240 s.; Vəliyev T.T. Göst. əsər.
12.Першке Л.Л. Обзор отраслей промышленности в Закавказском крае за 1906 г. Тифлис, 1907; за 1907 г., Тифлис, 1908 г; İsmayılov M.Ə. Göst. əsər; Vəliyev T.T. Göst. əsər.
13.Закавказье. Статистико-экономический сборник. Тифлис, 1925, 402 с.
14.Годовые обзоры главнейших отраслей народного хозяйства в 1914 г. Пг.1916, 580 s.
15.Azərbaycan tarixi, V cild, Bakı, 2001, 629 s.
16.Хелимский Т. О солодковом корне и экстрате его лакрице на Кавказе. М.,1911,82 с.
17.Исаев М. Солодковый корень-Экспортные товары Закавказья и условия их добывания и производства. Тифлис, 1925, I hissə, 425 s.
18.Исторический обзор солодковой промышленности. Б.-М. и Б.-Т., 71 с.
19.Труды Кавказского общества сельского хозяйства, №8-9, 1893.
20.AR DTA, f.509, siy.1, iş 57
21.AR DTA, f.44, siy.4, iş 40
22.Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М., 1972, 254 с.
23.Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1909-1911 гг. Тифлис, 1912, 161 с.
24.Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1912 г. Тифлис,1914, 153 с.
25.Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1913 г. Тифлис,1915, 178 с.
26.AR DTA, f.802, siy.1, iş 19

**KH.T.VALİYEVA**

## ABOUT QUESTİON OF SOURCE OF RAW MATERİALS OF THE NORFH AZERBAİJAN AT THE END OF XIX - BEGİNNİNG OF THE XX CENTURY

The peasants were engaged with the production of the tobacco in North Azerbaijan since old times. Tobacco was cultivated in all territories of Azerbaijan. Processing of tobacco was happening in local factories and on the eve of war of the first world has gathered 45 thousand poods tobacco liquorice root is amount the basic source of raw materials. İn the begining of XX century has had gathered 4-5 mil. poods roots.

**Х.Т.ВЕЛИЕВА**
***Институт Истории НАНА***

## О СЫРЬЕВОЙ БАЗЕ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА ПОСЛЕДНЕЙ ЧЕТВЕРТИ XIX-НАЧАЛЕ XX ВЕКА.

Выращиванием табака занимались крестьяне Азербайджана издревле. Во всех уездах Северного Азербайджана выращивали табак. Обработка табака происходила на местных табачных фабриках. Накануне Первой мировой войны было собрано более 45 тыс. пудов табака.

Солодковый корень являлся основной сырьевой базой солодковой промышленности. В начале XX в. ежегодно в среднем выращивали свыше 4-5 млн. пудов корня. Хлопковые семена также являлся сырьевой базой для выработке хлопкового масла.

***Rəyçilər: t.e.d.T.T.Vəliyev, t.e.d.R.C.Süleymanov.***

***BDU-nun Tarix fakültəsi «Slavyan ölkələri tarixi» kafedrasının 19 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***